AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ƏLİYEVA MARALXANIM TOFİQ QIZI**

# DİRİJORLUQ SİNFİNDƏ TƏLƏBƏLƏRİN YARADICI TƏXƏYYÜLÜNÜN İNKİŞAFI VƏ VƏRDİŞLƏRİN FORMALAŞDIRILMASI PROBLEMLƏRİ

**5804.01. – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Ümumi Pedaqogika» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *pedaqoji elmlər doktoru, professor*
**Tamilla Əli qızı Bağırova**

**Rəsmi opponentlər:** *pedaqoji elmlər doktoru,*
*əməkdar elm xadimi, professor*
**Fərrux Abbas oğlu Rüstəmov**

*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*dosent* **Telman Xanış oğlu Qəniyev**

**Aparıcı təşkilat:** Bakl Slavyan Universiteti
«Pedaqogika və psixologiya» kafedrası

Müdafiə 12 iyun 2018-ci ildə saat 16.00 Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya mərkəzində tanış olmaq mümkündür.

Avtoreferat 10 may 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **r.ü.e.d. R.Z.Hümbətəliyev**

## TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**İşin aktuallığı.** Azərbaycan Respublikasının Bolonya bəyamnaməsinə qatılması müxtəlif sahələrdə mütəxəssilərin, o cümlədən də musiqi müəllimlərinin hazırlanmasına yanaşmaların prinsipal dəyişikliyini nəzərdə tutur. Əsas kapitalın yaradıcı axtarışlara və yeni biliklərin mənimsəməsinə qadir olan insanın olması fikri artıq cəmiyyətimizdə formalaşmışdır ki, bu məsələ respublikanın "Təhsil qanununda" öz əksini tapmışdır. Ümumtəhsil məktəbə yüksək səviyyəli ixtisasçılar lazımdır ki, onlar nəinki dərsi yaradıcı şəkildə apara bilməli, həm də öz şagirdlərində yaradıcı qabiliyyətləri inkişaf etdirməyə qadir olmalıdır.

Müasir zaman daha çox yeni ideyaları tələb edir. Bununla əlaqəli olaraq, yaradıcı prosesin elmi cəhətdən əsaslandırılması, onun təxəyyül və digər psixi proseslər (qavrama, yaddaş, təfəkkür) ilə əlaqəsi, mənbələri, motivasiyası, onun təzahürünün şərtləri və formalarının öyrənilməsi labüddir. Yaradıcı şəxsiyyətin tərbiyəsi musiqi pedaqogikası qarşısında duran ən vacib məsələyə çevrilir. Bu problemin həlli tədris olunan hər bir fəniin, o cümlədən də dirijorluq fənninin tərbiyəvi potensialının üzə çıxarılmasını tələb edir. Fənnin vəzifələri tələbələrdə təkcə dirijorluq vərdiş və bacarıqların aşılanması ilə kifayətlənmir, onun əsas məqsədi tələbələrdə qeyri-standart düşüncə, analitik və tədqiqatçı keyfiyyətləri inkişaf etdirməklə onları müstəqil yaradıcı fəaliyyətə hazırlamaqdır. Bununla əlaqədar dirijorluq pedaqogikasında yeni yanaşmaların, yeni yolların axtarışı, ənənəvi metodların innovativ texnologiyalarla zənginləşdirilməsi məsələsi ortaya çıxır. Bizim tədqiqatımızın labüdlüyü də bu səbəbdən irəli gəlir ki, onun yerinə yetirilməsi nəticəsində müxtəlif müasir elmi bilik sahələrinin nailiyyətlərinə əsaslanaraq keyfiyyətcə yeni konsepsiyaların və metodologiyaların işlənib-hazırlanması baş verir.

**Problemin işlənmə dərəcəsi.** Məhsuldar təxəyyül məsələləri hələ XVIII əsrdə İ.Kant və Q.Heqel tərəfindən fəlsəfə baxımından tədqiq olunmuşdur. XIX-XX əsrlərdə yaradıcılıq fenomeninin öyrənilməsi psixoloq-alimlər tərəfindən başlanmışdır. Məsələn, T.Ribo, C.Hilford, E.Torrans, L.S.Vıqotski, Y.P.İlyin, A.M.Matyuşkin, S.İ.Seidov, Ə.A.Əlizadə, K.R.Əliyeva və b. bu problemi tədqiq etmişlər. Musiqi pedaqogikası mövqeyindən yaradıcı təxəyyül problemi XX əsrin sonuna yaxın M.R.Dadaşeva, S.M. Əsgərova və bir neçə rusiya alimləri tərəfindən araşdırılmışdır. Dirijorluq vərdişlərinin inkişafı problemlərinə Q.L.Yerjemski, İ.A.Musin, A.M.Pazovski, G.Ə.Axundova və b. tərəfindən baxılmışdır. Dirijorluq və xor sənətinin inkişafı tarixini T.N.Qrum-Qrjimaylo, V.V.Çistyakov, N.Mirzəyeva və L.Məmmədova tərəfindən tədqiq olunmuşdur.

Elmi ədəbiyyatın təhlili göstərir ki, ümumi və musiqi psixologiyada uşaqların təxəyyülünün inkişafı məsələləri kifayət qədər əsaslı işlənmişdir. Lakin bu tədqiqatların yaradıcı təxəyyül nəzəriyyəsinə verdiyi dəyərli töhfələri ilə yanaşı adları çəkdiyimiz alimlərin işləyib-hazırladığı metodlar musiqiçi-tələbələr üçün uyğun deyil. Musiqi pedaqogikasında yaradıcı təxəyyülün inkişafı ilə bağlı nəzəri araşdırmalar çox azdır, praktiki cəhətdən isə yaradıcı vərdişlərin inkişafına yönəlmiş metod və priyomlar nə ümumi şəkildə, nə də bilavasitə dirijorlugun tədrisində işlənilməmişdir. Bundan əlavə, dirijorluq dərslərində tələbələrin yaradıcı vərdişlərinin inkişafı üçün müasir innovasiyalı texnologiyaların tətbiqi məsələlərinə heç toxunulmamışdır.

**Tədqiqatın obyektini** musiqiçi-tələbələrin ali və orta-ixtisas məktəblərində dirijorluq-təlimi fəaliyyəti təşkil edir (ADPU-nun “Musiqi və onun tədrisi metodikası” kafedrasının və Sumqayıt musiqi texnikumunun dirijorluq şöbəsində təhsil alan tələbələrin misalında).

**Tədqiqatın predmetini** dirijorluq sinfində gələcəyin musiqi müəllimlərinin yaradıcı təxəyyülünün inkişafı və peşəkar və yaradıcı vərdişlərinin formalaşdırılması prosesi təşkil edir.

**Tədqiqatın məqsədini** yaradıcı təxəyyülün inkişafı problemləri, habelə dirijorluq dərslərində vərdişlərin formalaşdırılması mexanizmlərinin nəzəri cəhətdən əsaslandırılması və dissertasiyanın əsas müddəalarının eksperimental-təcrübi cəhətdən yoxlanılması təçkil edir.

Tədqiqatda belə **fərziyyə** irəli sürülmüşdür ki, dirijorluq dərslərində yaradıcı təxəyyülün inkişafı və vərdişlərin formalaşdırılması uğurlu və səmərəli keçməsi üçün aşağıda göstərilənlər vacibdir:

- tələbələrin yaradıcı təxəyyülünün inkişaf mərhələlərinin və onun aktivləşdirilməsi mexanizmlərinin aşkarlanması;
- tələbələrin psixoloji, fizioloji və biomexaniki hərəkət amillərinin nəzərə alınması ilə yaradıcı müstəqilliyin və texniki ustalığın formalaşdırılması metodlarının işlənib-hazırlanması;
- dirijorluq dərslərində tələbələrin yaradıcı təxəyyülünün və vərdişlərinin inkişafı üçün təlimdə kompleks yanaşmanım səmərəliliyinin müəyyənləşdirilməsi, yəni ənənəvi, ümumpedaqoji, spesifik musiqili və müasir texnologiyalarının birgə istifadəsi.

Tədqiqatın məqsədinə nail olmaq və fərziyyənin yoxlanılması üçün aşağıdakı **vəzifələr** labüd olmuşdur:

1. Tədqiqatın mövzusuna dair elmi ədəbiyyatın təhlili.
2. Yaradıcı təxəyyülün inkişafı spesifikasının müəyyənləşdirilməsi və dirijorluq dərslərində hərəkət və idrak fəallığı problemlərinin aşkarlanması.
3. Dirijorluq sinfində yaradıcı təxəyyülün formalaşdırılması mərhələləri-

nin müəyyənləşdirilməsi.

4. Tələbələrin yaradıcı təxəyyülünün, obrazlı təfəkkürünün, intellektinin fəallaşdırılması və tədqiqat işi aparma bacarıqlarının aşılanması və müstəqil düşüncənin inkişafı üçün mexanizm, metod və priyomların müəyyənləşdirilməsi.

5. Yaradıcı təxəyyülün inkişafı və vərdişlərin formalaşdırılması üçün kompleks yanaşmanın səmərəliliyinin eksperiment yolu ilə əsaslandırılması.

**Tədqiqatın metodoloji əsası:** Bizim nəzəri və eksperimental tədqiqatımız gələcək mütəxəssislərin hazırlığı probleminə pedaqogika və psixologiya elminin müasir yanaşmalarına əsaslanmışdır.

Tədqiqatın gedişatı zamanı aşağıdakı **metodlar** istifadə olunmuşdur:

– pedaqogika, dirijorluğun tarixi, psixologiya, metodika, fəlsəfə, fiziologiya, neyroelmlər və kulturologiya elmlərinə dair ədəbiyyatın öyrənilməsi;

– humanitar və təbii elmlərin konvergensiyası metodu;

– qabaqcıl pedaqoji təcrübənin təhlili və ümumiləşdirilməsi;

– dirijorluq sinfində tələbələrin yaradıcı təxəyyülünün inkişafının empirik müşahidəsi metodu (söhbət, sorğu və s.) ;

– müqayisəli təhlil metodu;

– ənənəvi metodlara söykənən innovasiyalı metodlar;

– tələbələrin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərin formalaşdırılmasına dair təklif olunan metodika üzrə eksperimental-təcrübi işin aparılması.

Bununla yanaşı biz tarixçilik, dialektika, sistemlilik tədqiqat prinsiplərinə, habelə humanitar və təbii elmlərin inteqrasiyasında sinergetik yanaşmalara əsaslanmışıq.

**Elmi yenilik.** Dissertasiyada ilk dəfə olaraq Azərbaycanda dirijorluq sənətinin təşəkkülü və onun tədrisi sisteminin inkişafı və problemləri araşdırılmışdır. Elmi yenilik dirijorluq dərslərində yaradıcı təxəyyülün inkişaf mərhələlərinin göstərilməsində, onun inkişafına yönəlmiş metod və priyomların təklifində, yaradıcı və müstəqil şəxsiyyətin formalaşdırılması yollarının müəyyənləşdirilməsində öz əksinin tapmışdır. Tədqiqatda ilk dəfə olaraq dirijorluğun tədrisinə kompleks yanaşmanın səmərəliliyi göstərilmişdir, innovasiyalı metodların tətbiqi vasitəsilə dirijorluğun tədrisinə yaradıcı yanaşma metodları təklif olunmuşdur.

**Tədqiqatın nəzəri əhəmiyyəti** dirijorluğun nəzəri əsaslarının işlənilməsi, habelə onun tədrisi metodikasına elmi-sistemləşdirilmiş töhvənin gətirilməsi, yəni yeni kompleksli metod və priyomların işlənilməsi ilə müəyyənləşdirilir. Dissertasiya bu sahədə gələcəkdə aparılacak tədqiqat işləri

üçün nəzəri əsas kimi çıxış edir. Burada yaradıcı təxəyyülün inkişafı üçün işlənilmiş prinsip və metodlar digər ifaçılıq ixtisaslarında da tətbiq oluna bilər (onların spesifikasını nəzərə alınması şərti ilə).

**Tədqiqatın praktiki əhəmiyyəti** yaradıcı təxəyyülün və vərdişlərin inkişafına yönəlmiş mexanizmlərin işlənib-hazırlanmasında öz əksini tapır. Bu tədqiqat dirijorluq fənni tədris olunan ali və orta ixtisas məktəblərində fənn müəllimləri üçün metodoloji vəsait kimi yardım edə bilər. Bundan əlavə dissertasiya materialları "Xorşünaslıq", "Xor partituraların oxunuşu", "Xor ədəbiyyatı" və s. fənlərin tədrisində də istifadə oluna bilər.

**İşin müdafiəyə buraxılan əsas müddəaları:**

1. Yaradıcı və dirijorluq-ifaçılıq peşə vərdişlərinin formalaşdırılmasında yaradıcı təxəyyül əsas amil kimi çıxış edir.
2. Dirijorluq dərslərində yaradıcı təxəyyülün inkişafı üç mərhələdə həyata keçirilir: a) qavrama və musiqili-eşitmə təsəvvürlərin toplanılması; b) musiqili-obrazlı təfəkkürün və intellektin inkişafı; c) texniki ustalığın və ifaçılıq vərdişlərinin inkişafı;
3. Musiqiçi-dirijorun yaradıcı vərdişlərinin və texniki ustalığının formalaşması yalnız tədrisə kompleksli yanaşma nəticəsində səmərəli olur;
4. Müasir innovasiyalı texnologiyaların istifadəsi tələbələrin yaradıcı təxəyyülünün və vərdişlərin inkişafı üçün səmərəlidir.

**İşin aprobasiyası.** Tədqiqatın nəticələri açıq dərslərdə və elmi-praktiki seminarlarda həyata keçirilmiş, habelə doktorantların və gənc tədqiqatçıların XVII, XVIII, XIX respublika, "Türksoy xalqlarının musiqi mədəniyyətinin tədqiqi problemləri" XIII və XIV beynəlxalq və digər konfranslarda dərc olunmuşdur. Tədqiqatın nəticələri ADPU-nun "Ümumi pedaqogika" kafedrasında, ADPU-nun Dissertasiya Şurasının Elmi Seminarında və aparıcı təşkilatda müzakirə edilmişdir. Dissertasiyanın mövzusu ilə bağlı 16 məqalə nəşr olunmuşdur.

**İşin strukturu.** Dissertasiya giriş, üç fəsil, beş yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, problemin işlənmə dərəcəsi, eləcə də işin elmi yeniliyi, məqsədi, predmeti, obyekti və metodoloji əsasları, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və s. məsələlərə baxılmışdır.

**I Fəsil – «Dünya və Azərbaycan təcrübəsində dirijorluq sənətinin inkişafı və dirijorluğun tədrisinin problemləri»** adlanır və iki yarımfəsildən ibarətdir ki, burada dirijorluq sənətinin ən primitiv formalarından

yüksək ifaçılıq səviyyəsinə yüksəlməsinin bütöv transformasiya yolu müşahidə olunur və müasir dirijorluq pedaqogikasında yaranan problemlər araşdırılır.

**“Qərbi Avropa və Rusiyada dirijorluq sənətinin inkişafı”** adlanan 1-ci yarımfəsildə antik dövr, orta əsrlərdən bizim günlərə qədər dirijorluğun təşəkkülü mərhələləri müşahidə olunur. Burada göstərilir ki, dirijorluğun təşəkkülünün ilkin mərhələsində xora rəhbərlik əl və barmaqların şərti simvolik hərəkətləri sistemi vasitəsilə həyata keçirilirdi. XVI-XVII əsrlərdə çoxsəsli musiqinin və orkestrin inkişafı nəticəsində “batuta” vasitəsilə dirijorluq üsulu yaranır. Operanın inkişafı nəticəsində general-bas partiyasını ifa edən musiqiçi dirijor kimi çıxış etməyə başlayır ki, o öz çalğısı, baş, göz və ayaq hərəkətləri ilə ifanı idarə edirdi. Sonralar Almaniyada oratoriya janrının inkişafı nəticəsində orqan ifacısı həm də ümumi ifaya rəhbərlik edirdi. XVIII əsrin sonuna yaxın orkestr tərkibinin mürəkkəbləşməsi dirijorun alətdə ifasından azad olmasını və diqqətinin yalnız dirijorluqda cəmləşməsini tələb edir.

XIX-XX əsrlərdə daha mürəkkəb musiqinin yaranması ilə ifanın idarə edilməsi artıq tamamən yeni texnikanı, bütöv bir xüsusi işarələr sistemini: jestləri, mimikanı, bədən vəziyyətlərini, təlqin təsir siqnallarını tələb edirdi. Məhz bu dövrdə dirijorluğun müstəqil ifaçılıq sənəti kimi təçəkkülünün son mərhələsi baş verir ki, burada nəinki ifanın koordinasiyası, lakin bədii traktobka (yorum) və bəstəkar niyyətlərinin və üslubunun ötürülməsi nəzərdə tutulur.

**“Azərbaycanda dirijorluq sənətinin təşəkkülü, kadr və dirijorluğun tədrisi sistemində olan problemlər”** adlanan 2-ci yarımfəsildə Azərbaycanda dirijorluq məktəbinin yaranması tarixi, xor sənətinin və dirijorluq kadrlarının inkişafında Ü.Haclbəylinin rolu, həmçinin onun tədrisində mövcud olan problemlər araşdırılır.

Hələ 1877-ci ildə Bakıda İctimai Məclis (Obşestvenoye sobraniye) nəzdində ilk həvəskarxor yaradılmışdır. Bu digər xor kollektivlərinin yaranmasına təkan vermişdir. Belə ki, Sabuçu qəsəbəsində 1899-cu ildə A.A. Lampe fəhlə və onların uşaqlarından ibarət xor yaratmışdır. Bu xor beş il ərzində onlarla konsertlərdə çıxış etmişdir. Qeyd etməliyik ki, musiqi təhsilinin ilkin tumurcuqları hələ o zaman təşəkkül tapmışdır. Belə ki, 1874-cu ildə təşkil olunmuş “Müqəddəs Nina gimnaziyasında” sinifdən kənar tədbirlərdə mahnı oxuma həyata keçirilirdi. 1864-cü il oktyabrın 1 Zaqatala şəhərində qızlar məktəbi açılmışdır. Burada musiqi gecələrində və bayram tədbirlərində qızlardan ibarət xor aldıqları musiqi savadından bəhrələnərək, öz məharətini göstərirdi. 1895-ci ildə Bakıda

A.N.Yermolayeva ilk musiqi məktəblərindən birini yaratmışdır, sonralar bir sıra digər məktəblər də açılmışdır.

Azərbaycanda milli xor sənətinin yaranması üçün Ü.Hacıbəyli çox səylər göstərmişdir. Məhz xor sənətinin populyarlaşmasında Ü.Hacibəyli yeni təfəkkür tipinin, yeni yaradıcı şəxsiyyətin tərbiyəsi yolunu görürdü. 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyası yaradılır və 1926-cı ildə onun nəzdində Ü.Hacıbəyli çoxsəsli azərbaycan xorunu təçkil edir. Yeni kollektivdə 70 iştirakçı var idi. Lakin bir müddətdən sonra bu kollektiv dağılır. 1936-cı ildə Ü.Hacıbəyli Azərbaycan Dövlət Filarmoniyası nəzdində yüz nəfərdən (əsasən azərbaycanlılardan) ibarət Respublika Dövlət Xorunu yaradır. Çox təəssüf ki, bu xor da dağılır. Musiqi mədəniyyətinin uğurlu inkişafı qaçılmaz surətdə professional təhsil ilə bağlıdır. Respublikada yaradılan bütün xor kollektivlərin dağılmasının səbəbi respublikada xor dirijor mütəxəssislərin olmaması idi. Buna görə 1951-ci ildə Az. Dövlət Konservatoriyasında tarixi-nəzəri fakültənin nəzdində xor dirijorluğu şöbəsi açılmışdır ki, onun məqsədi xor kollektivləri üçün rəhbər hazırlamaq idi. Onun ilk müəllimi L.V.Frolova idi. O, bir sıra istedadlı azərbaycan xormeysterlərini yetişdirmişdir. 1970-ci illərin sonuna respublikamızda xormeyster kadrlarının çatışmamzlığı problemi tamamən aradan qaldırılmışdır.

Xor-dirijorluğu sənəti ilə yanaşı Azərbaycanda həmçinin opera-simfonik dirijorluğu da inkişaf etmişdir. Simfonik dirijorluq ölkəmizdə XX əsrin 20-ci illəridən inkişaf etməyə başlamışdır və L.Şteynberq, A.Anosov və A.Orlov kimi görkəmli rus dirijorların adları ilə bağlıdır. İlk milli opera dirijoru M.Maqomayev olmuşdur. 1912-ci ildə “Əsli və Kərəm” opera tamaşasında o ilk dəfə dirijor kimi çıxış etmişdir. 1932-ci ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə radioyayım mərkəzində simfonik orkestr yaradılmışdır və onun ilk dirijoru A.S.Şvarts olmuşdur. Sonra Ü.Hacıbəylinin davəti ilə bu kollektivə bir neçə il ərzində avstriyalı dirijor Otto Ştrasser rəhbərlik etmişdir. 1936-cı ildə Niyazı Anosovla birgə Azərbaycan Dövlət Filarmoniyası nəzdində Dövlət Simfonik orkestrini yaradırlar. Maestro Niyazı Ü.Hacıbəylinin və M.Maqomayevin layiqli davamçısı olmuşdu. O, ilk milli professional simfonik dirijoru olmuşdur. 30-cu illərdə həmçinin Əşrəf Həsənov və Əfrasiyab Bədəlbeyli də simfonik dirijorlar kimi özlərini sınayırlar. 1941-ci ildən Ə.Həsənov radioyayaım mərkəzi nəzdində simfonik orkestrin baş dirijoru, Ç.Həsənov isə ikinci dirijoru kimi fəaliyyət göstərmişlər. Sonrakı illərdə bu kollektivə əvvəl respublikanın xalq artisti R.Məlik-Aslanov, sonra isə İsmail Hacıyev və Yaşar İmanov rəhbərlik etmişlər.

1980-ci ildə musiqi müəllimlərinin hazırlığı məqsədilə ADPİ-də (indiki ADPU) "musiqi müəllimliyi" ixtisası açılmışdır. "Musiqi fənləri və onun tədrisi metodikası" kafedrasında 17 fənn tədris olunurdu, o cümlədən də dirijorluq fənni. Kafedranın ilk rəhbəri N.S.Məlikməmmədov, ilk dirijorluq müəllimləri isə G.Ə.Axundova, P.A.Babayeva olmuşlar.

Bu gün "Musiqi və onun tədrisi metodikası" kafedrasında altı dirijorluq müəllimi çalışır, dirijorluq fənninin özü isə gələcəyin musiqi müəllimlərinin peşə və yaradıcı vərdişlərinin formalaşmasında aparıcı rol oynayır. Fənnin öyrədilməsi tələbələrdə obrazlı təfəkkürü, musiqini qavrama, təxəyyülü inkişaf etdirir, eləcə də ixtisas üzrə bilikləri, uşaq kollektivləri ilə iş metodlarına yiyələnməni aşılayır.

Lakin bütün müsbət cəhətlərlə yanaşı dirijorluğun tədrisində zamanın tələblərindən gerilik duyulur. Dirijorluğun tədrisi metodikası sanki ötən əsrin ortalarında donub-qalmışdır. Əsasən informativ metodlar və müəllimi kopiyalama üsulu istifadə edilir. Faktiki olaraq müəllim öz kopiyalarının və "asılı məxluqların" yaradılması ilə məşğul olur. Bu isə tələbələrdə yaradıcı müstəqilliyin, cəsarətin yaranmasına mane olur. Sonralar məktəb kollektivi ilə iş zamanı belə tələbələr çətinliklərlə üzləşəcəklər, cünki onlar müstəqil olaraq ifaçılıq məsələlərinin həllinə hazır olmayacaqlar. Bundan başqa, fizioloji nöqteyi nəzərindən tələbədən müəllimin hərəkətlərini dəqiq kopiyalamasını tələb etmək düzgün deyil. Bütün insanlarda hərəkət quruluşunda ümumi fizioloji qanunauyğunluqların mövcudluğuna baxmayaraq, hər bir insan fərddir. Bir insan üçün təbii və üzvi olan hərəkətlər, digəri üçün narahat və qeyri-təbii ola bilər.

Biz qəbul edirik ki, əyyanilik prinsipi dirijorluğun təlimində çox böyük rol oynayır, çünki heç bir dərslik və ya sözlə izah müəllimin canlı ifasını, göstərişini əvəz edə bilməz. Lakin bunu çox ehtiyatla, tələbənin fərdiliyini əzmədən və onun psixofizioloji və biomexaniki xüsusiyyətlərini nəzərə alaraq, etmək lazımdır. Hər bir dirijorluq priyomunun bütün mümkün olan variantlarını göstərəndən sonra, pedaqoq vasitələrin seçimini tələbənin özünə həvalə etməlidir, çox vaxt onu özünün orijinal jestlərini yaratmağa sövq edərək (xüsusilə istedadlı tələbələri), bununla da onlarda yaradıcı (divergent) təfəkkürü inkişaf etdirməlidir.

Bundan başqa dirijorluq vaxtı tələbə obrazla bağlı müəllimin fikirlərini deyil, öz baxışlarını, yəni öz fərdi interpretasiyasını göstərməlidir. Bu isə artıq həqiqi yaradıcılıqdır.

Bu gün dirijorluğun tədrisində informasiya-kompüter texnologiyaları böyük əhəmiyyət kəsb etməlidir. Lakin dirijorluq müəllimləri bundan

nadir hallarda istifadə edirlər. İKT zəngin video və səs materialını istifadə etmək, müxtəlif əsərləri müxtəlif ifalarda dinləmək, onların müqayisəli təhlilini etmək və müəllimlə diskussiya, polemika aparmaq imkanını yaradır. Lakin kompüter texnologiyalarının imkanları bunula məhdudlaşmır. Tələbəyə həmçinin not yazısı, rəngərəng səsli slaydların, kiçik videoroliklərin hazırlanması ilə bağlı proqramlarla da işləməyi öyrətmək lazımdır. Buna görə dirijorluq sinfinin müəllimi zamanla ayaqlaşaraq, özünü və tələbələrini inkişaf etdirməlidir. Bu gün kompüter texnologiyalarına yiyələnməyən gənc, müasir müəllimi məktəbdə təsəvvür etmək mümkün deyil.

Bütün yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, müasir ali peşə təhsili "tələbələrdə sırf peşə ilə bağlı olmayan bir sıra bilik və peşə-fəaliyyətli komponentləri formalaşdırmalıdır". Son illər nəşr olunan müxtəlif alimlərin monoqrafiya və metodik vəsaitləri təlim prosesinə yeni, yaradıcı yanaşmanın labüdlüyünü bir daha göstərir ki, bu da Qərb ölkələrinin aparıcı təhsil ocaqlarının proqramlarında öz əksini tapmışdır.

**Fəsil II – «Dirijorluq sinfində təlim alanların peşə və yaradıcılıq vərdişlərinin formalaşdırılmasında təxəyyül əsas amil kimi» -** üç yarımfəsildən ibarətdir. Burada qoyulmuş problem üzrə ədəbiyyatın təhlili aparılır, yaradıcı təxəyyül və yaradıcı şəxsiyyət anlayışlarının mahiyyəti açıqlanır, yaradıcı təxəyyülün və müstəqilliyin inkişafı mərhələləri müəyyənləşdirilir, tələbələrin peşə və yaradıcılıq vərdişlərin inkişafına yönəlmiş mexanizmlər göstərilir.

**2.1. «Yaradıcı təxəyyülün mahiyyəti, yaradıcı şəxsiyyət anlayışı»** adlı yarımfəsildə elmi ədəbiyyatın təhlili aparılır, yaradıcı təxəyyül və yaradıcı şəxsiyyət anlayışlarının mahiyyəti araşdırılır.

İdrak nəzəriyyəsi çərçivəsində təxəyyül hələ antik və İntibah dövründə, xüsusilə isə alman klasiik fəlsəfəsi nümayəndələri tərəfindən araşdırılmışdır.Təxəyyül fenomeni və onun fəaliyyət prinsipləri ilk dəfə XVIII əsrdə alman filosofları Kant və Hegel tərəfindən araşdırılmışdır. Hər iki filosof yeni biliklərin əldə olunması üçün təxəyyülün işini zəruri hesab edirdi, lakin onun işini "sintezdə", yəni sadə kombinasiya etməkdə görürdülər. Fikrimizcə, təxəyyülün işini yalnız məlum olan təsəvvür və biliklərin kombinasiyası kimi müəyyənləşdirilməsi bir qədər düz deyil. Kombinə etmə təxəyyülün yalnız bir elementi kimi çıxış edə bilər. Biz hesab edirik ki, yaradıcı təxəyyülün mahiyyəti məhz tamamən yeni məhsulun yaradılmasındadır.

XX əsrin ortalarında təxəyyülün müxtəlif psixoloji nəzəriyyələri ortaya çıxır. Ətrafında mübahisələr aparılan əsas problem kimi emosional

və rasional amillərin əhəmiyyəti məsələsi çıxış edirdi. Bəziləri hesab edirdi ki, təxəyyül proseslərində emosiyalar, duyğular əsasdır, digərləri isə təxəyyülün intellektual, rasional təbiətini qeyd edirdilər. Biriləri yaradıcılıq proseslərində təxəyyülün rolunu kiçildir, digərləri isə bunun tam əksi olaraq, yaradıcılıq proseslərində yalnız təxəyyülün iştirak etdiyini bəyan edirdilər. Bizim fikrimizcə, fantaziya və təfəkkür ayrılmazdır, və yaradıcılıq bir tərəfdən intellektual, digər tərəfdən isə emosional-duyğulu prosesdir. Biz hesab edirik ki, yaradıcılıq proseslərində təxəyyülün aparıcı rol oynamasına baxmayaraq, o digər psixi proselərlə (qavrama, yaddaş, obrazlı və məntiqi təfəkkür) vəhdətdə fəaliyyət göstərir.

XX əsrin ikinci yarısında təxəyyül və yaradıcılıq proseslərinin pedaqogika mövqeyindən öyrənilməsinin ilk cəhdləri olmuşdu ki, bu M.R.Dadaşovanın və S.M.Əsgərovanın işlərində öz əksini tapmışdır. L.S.Vıqodski, Y.İ.İqnatyev, S.L.Rubinşteyn, M.R.Dadaşovanın və d. işlərindən göründüyü kimi, təxəyyül yeni biliklərin mənimsənilməsinın səmərəli olması üçün əsas amildir, habelə o, artıq mövcud olan biliklərin yaradıcı şəkildə dəyişdirilməsinin əsasında duraraq, şəxsiyyətin özünüinkişafına təkan verir.

Tələbələrin yaradıcı təxəyyülünün inkişaf etdirilməsi özü-özlüyündə məqsəd deyil. Ən əsası budur ki, o, yaradıcı şəxsiyyətin formalaşdırılması üçün bir vasitədir. Azərbaycan alimi S.Seyidov hesab edir ki, yaradıcı şəxsiyyət "onu əhatə edən digər insanlardan daxili dünyasının zənginliyi ilə fərqlənir. O, daima yeniliyin, qeyri-adi bir şeylərin axtarışındadır". Onun fikrincə, hətta ən adi, gündəlik rutin işi də belə şəxsiyyət yaradıcı fəaliyyətə çevirir.

Yaradıcı şəxsiyyət fikir cəsarəti və təxəyyül, riskə hazır olma, özünəməxsusluq və fantaziya, problemli baxış, təfəkkür cəldliyi, təzadları görmə bacarığı, bilik və təcrübəni bir situasiyadan digərinə keçirmə bacarığı, tənqidi yanaşma və düşüncə müstəqilliyi, alternativlik, təfəkkür çevikliyi, özünüidarə və özünüinkişaf kimi kefiyyətlərə malikdir. Şəxsiyyətin formalaşdırılması prosesi insanın bütün həyatı boyu davam edir. Şəxsiyyətin formalaşmasına üç amil təsir edir: tərbiyə, sosial mühit və irsi amillər. Pedaqogikada tərbiyə şəxsiyyətin formalaşmasının əsas amili kimi qəbul edilir. Dirijorluğun təlimində təfəkkürün ümumi keyfiyyətləri spesifik peşə-musiqili qabiliyyətlərlə qarşılıqlı əlaqəyə girərək, həm emosional-estetik komponenti, eyni zamanda da intellektin inkişafına gətirib çıxarır.

**2.2. «Dirijorluq dərslərində yaradıcı təxəyyülün inkişafı və yaradıcı müstəqilliyin formalaşdırılması mərhələləri»** adlı yarımfəsildə

dirijorluq dərslərində yaradıcı təxəyyülün formalaşdırılması mərhələləri müəyyənləşdirilir və yaradıcı müstəqilliyin formalaşdırılması yolları göstərilir.

Azərbaycan psixoloq alimi Ə.Əlizadə yaradıcılıq prosesinin üç fazasını ayırd etmişdir: hazırlıq, axtarış-düşüncə və realizə olunma. Buna əsalanaraq biz dirijorluq dərslərində yaradıcı təxəyyülün üç mərhələsini ayırd etmişik. Bunun üzərində bir qədər ətraflı dayanaq.

Təxəyyülün inkişafı həyatın dərindən öyrənilməsi, analitik əqli fəaliyyət ilə əlaqəlidir. Bunula bağlı belə fikir irəli sürmək olar ki, insanın təcrübəsi nə qədər zəngin olarsa, onun bilikləri və müşahidələri nə qədər çox olarsa, bir o qədər onun təxəyyülü zəngin olar və yaradıcılıq üçün imkanları artar. Belə olan halda nəticə çıxarmaq olar ki, yaradıcı təxəyyülün inkişafının birinci və əsas mərhələsi qavrama və musiqili-eşitmə təsəvvürlərinin toplanmasıdır. Təxəyyül öz fəaliyyətində keçmişdəki qavrama təcrübəsinin elementlərini, yəni enqrammaları istifadə edir. Musiqili-eşitmə təsəvvürlərinin toplanması vasitəsilə yaddaşın fəaliyyəti fəallaşır. Tələbə nəqədər çox musiqi dinləyərsə, bir o qədər onun yaddaşı zənginləşir və qavranılan materialın yaradıcı şəkildə emalı imkanları yaranır.

Təxyyül həmçinin digər psixi proseslə – təfəkkür ilə sıx əlaqədə fəaliyyət göstərir. Həyati təsəvvürlərə və konkret obrazlara əsaslandığı üçün musiqiçinin fəaliyyətində əyani-obrazlı təfəkkür xüsusi rol oynayır. Lakin musiqiçi-dirijorun fəaliyyətində əyani-obrazlı təfəkkür həm də əyani-fəliyyətli və məntiqi təfəkkür ilə şərtləndirilir.

Beləliklə, dirijorluq sinfində yaradıcı təxəyyülün inkişafının ikinci mərhələsini obrazlı musiqili və məntiqi təfəkkürün inkişafı təşkil edir. İfaçı-dirijorun musiqi təfəkkürü musiqi əsərinin ifası (yenidən yaranması) fəaliyyəti ilə bağlıdır. Musiqinin qavranılması prosesində düşüncəyə çevrilən müəyyən emosiya yaranır ki, o obrazlı təfəkkürə təkan verir. Bu, öz növbəsində, qavaranılan musiqi materialının yaradıcı şəkildə emalına səbəb olur və nəticə kimi ortaya ifadəli, bədii ifa çıxır.

Qeyd etməliyik ki, təfəkkürün fəaliyyəti sadəcə daxili işlə məhdudlaşmır, o özündə həmçinin görmə və hərəkət obraz və təsəvvürlərini ehtiva edir. Müasir elmi baxışlara müvafiq hərəkətlər insanın təfəkkür fəaliyyəti ilə sıx bağıdır. Hərəkət prosesində nəinki fərdin həyat fəaliyyətinin fiziki və psixoloji cəhətlərinin bütün kompleksini qarşılıqlı əlaqədə müşahidə etmək, həm də yaradıcı şəxsiyyətin öz daxili potensial niyyətlərinin və bədii ideyalarının praktiki cəhətdən reallşdırılmasının ümumi istiqmətlənməsini sezmək mümkündür. İfaçılıq, yəni praktika təxəyyül

obrazlarının düzgünlüyünün meyarıdır. O, qoyulmuş məqsədə nail olmaq üçün bir sıra hərəkətlər zəncirinin sanki son həlqəsi rolunu oynayır. Obrazların yaradılması, onların dəqiqləşdirilməsi, zənginləşdirilməsi və dəyişdirilməsi tələbələrin praktiki fəaliyyətində baş verir. Musiqinin ifası öz əsasında gərgin emosional fəaliyyətdir ki, bunun nəticəsində musiqi təfəkkürü və təxəyyül fəallaşır, intellektual proseslərin səmərəli həyata keçirilməsi üçün şərait yaranır. Beləliklə, belə nəticəyə gəlmək olar ki, tələbənin yaradıcı txəyyülünün inkişafının üçüncü mərhələsi texniki ustalığın və ifaçılıq vərdişlərinin formalaşdırılmasıdır.

Tələbənin yaradıcı müstəqilliyinin inkişafı mürəkkəb və çoxşaxəli bir prosesdir. Vaxtı ilə hələ L.S.Vıqotski inkişafedici təlim konsepsiyasını elmı cəhətdən əsaslandırmışdır. O hesab edirdi ki, müstəqil musiqili fəaliyyət prosesində bir neçə fəaliyyət növlərinin tədricən mərhələlər ilə transformasiyası baş verir: reproduktiv-təqlidi, axtarış-ifaçılıq və bilavasitə yaradıcı. Lakin bizim fikrimizcə, tələbənin hətta müstəqil fəaliyyətinin müəllim tərəfindən nəzarət, bir qədər korrektə etməsi, istiqamət verməsi lazımdır.

Dirijorluq sinfinin müəllimi tələbə qarşısında qoyduğu sualların müstəqil həll etmə bacarığının inkişafı onlara sonralar təşəbbüskar və yaradıcı şəkildə məsələləri həll etməni təmin edir. Dirijorluq ifaçılığı prosesi cəhətdən müstəqillik əsər üzərində iş aparmanın bütün kompleksini nəzərdə tutur, yəni partituranın öyrənilməsi və təhlili, dirijorluq vasitələrinin və priyomlarının seçimi, obrazın yaradılması və musiqi əsərinin ifasının xarakterinin müəyyənləşdirilməsini.

Beləliklə, bütün yuxarıda dediklərimizi ümumiləşdirərək, biz belə nəticə çıxarırıq ki, yaradıcı müstəqilliyin formalaşdırılmasının əsas amili kimi yaradıcı təxəyyülün inkişafı çıxış edir ki, o emosianal və rasional başlanğıca əsaslanır. Və bu inkişaf qavrama və musiqili-eşitmə təsəvvürlərin toplanması, musiqi təfəkkürünün inkişafı və alınan biliklərin təcrübədə aprobasiyası, yəni ifası yolu ilə baş verir.

**2.3. Dirijorluq sinfində tələbələrin peşə və yaradıcı vərdişlərinin formalaşdırılması mexanizmləri (metod və priyomları)** adlı yarımfəsildə biz tələbələrin texniki və yaradıcı vərdişlərinin inkişafına dair metodlar kompleksini təklif etmişik.

Bu gün təlimdə kompleksli yanaşmanın, yəni ənənəvi, ümumpedaqoji, spesifik musiqili və innovasiyalı təlim metodlarının məharətlə birləşdirilməsi zəruriyyəti artıq ortaya çıxmışdır. Ənənəvi metodlar dedikdə, biz özündə bir sıra priyomları ehtiva edən sözlü və əyani metodları nəzərdə tuturuq. Sözlü metodların priyomları: diqqətin cəmləşdirilməsi, izah,

şərhlər, dolayısı təlqin, təshihedici qeydlər və s.,və i.a. Əyani metodların priyomları: müşahidə, nümayiş və illüstrasiya, pozitiv və neqativ göstərmə, yavaşdirilmış "kinoçəkiliş" priyomu və s. Bu metodlara innovasiyalı metodlar əlavə edilməlidir ki, bunların sırasına problem-axtarış, evristik, tədqiqat, divergent, interaktiv və inteqrativ texnologiyalar və İKT daxildir.

Bundan başqa ümümpedaqoji (mümkünlük, fərdi yanaşma, ardıcıllıq) və musiqi pedaqogikasına aid xüsusi (interpretasiya, obrazın tamlığı, intonasiya dayağı, analoğiya və müqayisə) metodlar da istifadə edilməlidir. Dirijorluq sinfinin müəllimi dərk etməlidir ki, müxtəlif tələbələrlə iş prosesində eyni metodlardan istifadə etmək mümkün deyil. Hər bir tələbənin psixi və fizioloji  xüsusiyyətlərini, həmçinin dərsdə yaranmış vəziyyəti nəzərə alaraq, hər bir konkret halda metodların seçiminə fərdiliklə yanaşılmalıdır.

Mütəxəssislərin hazırlığı üçün istifadə edilən müasir texnologilar içində tələbələrin yaradıcı təxəyyülünün inkişfı üçün ən səmərəli olanlar fikrimizcə problem-axtarış və tədqiqat texnologiyalarıdır. İstənilən ifaçı-musiqiçi əsər üzərində işləyərkən üç mərhələni keçməlidir: a) ifa niyyətinin yaranması; b) ifa vasitələri barəsində analitik iş; c) ifa niyyətinin realizə olunması. Lakin dirijorluq ifaçılığının əhəmiyyətli fərqi bundadır ki, burada birinci mərhələ, yəni partitura üzərində iş önəm daşıyır. Bundan belə nəticə çıxarmaq olar ki, problem-axtarış və tədqiqat metodları tələbələrin yaradıcı fərdiliyinin inkişafında mühüm rol oynayır.

Evristik texnologiyaya daxil olan sinektika metodunun tətbiqi də musiqiçilər üçün faydalıdır. Bu metoda aid olan assosiasiyalar priyomu vasitəsilə əsər sanki canlanır. Dinləyici və ya ifaçı bu əsərin obrazlarını həyati vəziyyətlərlə və ya digər obyektlərin (təbiət, incəsənətin başqa növləri) oxşar obrazları, simvolları, səsləri, qoxuları ilə əlaqələndirir. Assosiasiyalar emosiyalarla sıx bağlıdır, onlar insan qəlbini həyacanlandıraraq, musiqi əsərinin qavranılmasını gücləndirir.

Dirijorluq dərslərində təlimi problemlərin, məsələn, musiqili obrazın inkişafının daxili qanunauyğunluğu (səsaparıcılığının xarakteri, dinamika, aqogika, ritmik və tembr xüsusiyyətləri, diksiya, melizmatika və s.) açıqlanması zamanı tələbəni öyrənilən bəstəkarın əsərinin interpretasiyasının dərk edilməsinin metodiki cəhətdən düzgün yolunun axtarışına sövq etmək lazımdır. Bunun üçün müəllim dirijorluq dərslərində interpretasiya metodundan istifadə etməlidir. Tələbələrin müstəqil şəkildə əsərin təhlilini aparma bacarığına əsaslanaraq, onun interpretasiyasının müxtəlif variantlarının axtarışı baş verir, yəni tələbələrdə yaradıcılıq vərdişləri formalaşır..

Eynizamanda interpretasiyanın grdişatında divergent metodu da reallaşdırılmalıdır ki, o tələbələrdə yaradıcı-təlimi məsələlərin həlli prosesində musiqi əsərinin araşdırılmasının müxtəlif səviyyələrində müəyyən stereotiplər çərçivəsindən çıxma bacarığını inkişaf etdirir. Bu isə, öz növbəsində, yaradıcı təfəkkürün fəallaşmasına və bilavasitə inkişafına təkan verəcəkdir. Məsələn, dirijorluq sinfində sinkopa priyomunun öyrədilməsi zamanı tələbəyə müxtəlif xarakterli əsərlərdən sinkopası olan parçalar təklif olunur. Tələbə sinkopanın göstərilməsinin müxtəlif variantlarını sınayaraq, hər bir konkret halda lazım olan üsulu axtarıb-tapır.

Tələbələrin yaradıcı təxəyyülünün fəallaşdırılması üçün analogiya və müqayisə metodu da çox səmərəlidir. Musiqili analogiyalar əsərin ifadəlilik vasitələrində: melodiya və harmoniya, aqogik dəyişiklər, temp və ritm, pauza və fermato, tembr və tonallıq, dramaturgiya və üslüb kimi məhfumlarda tələbənin diqqətini cəmləşdirməyə imkan verir. Analogiya və müqayisə metodu vasitəsilə musiqi səslənməsinin bütün bu elementləri müəllif niyyətlərinin bədii təcəssümümü nöqteyi nəzərindən dərindən öyrənilir və təhlil olunur.

Müxtəlif incəsənət növlərinin inteqrasiyası da tələbələrin yaradıcı təxəyyülünün səmərəli inkişafına təkan verir. Özü də incəsənət növləri, onların ifadəlilik imkanları arasında olan fərq real mövcudluğun oxşar hadisələrinin müxtəlif incəsənət növlərində bədii təcəssümünə əsla mane olmur. Müxtəlif incəsənət növlərinin kompleksli öyrənilməsi nəticəsində dirijorluq dərslərində tələbələrdə incə müşahidəçilik, təxəyyül və dərin duyğular inkişaf edir.

Yaradıcı qabiliyyətlərin formalaşdırılması həmçinin tələbələrin peşəyə dair texniki ustalığa yiyələnmələri prosesi ilə sıx bağlıdır. Burada insan hərəkətlərinin əsasında duran təbii fizioloji və biomexaniki amillərin fəal istifadəsi zəruridir. Dirijorluq müəllimi tələbələrin vərdişlərini formalaşdırarkən professional hərəkətləri təbii hərəkətlərə yaxınlaşdırmalı, təbii hərəkətlərə isə peşə yönümünü verməyi bacarmalıdır.

Dirijorluq sinfinin müəllimi helə məşğələlər seçməlidir ki, bunların vasitəsilə tələbə ifaçılıq texnikasının itiləşməsi üçün onun bütün komponentlərini istifadə edə bilsin. Məsələn, tələbənin əzələ qüvvəsinin inkişafı üçün ona böyük əzələ gərginliyi tələb edən *f* və *ff* nüansında olan əsərləri, hərəkətlərin cəldliyini inkişaf etdirmək üçün cəld tempdə olan əsərləri, hərəkətlərin koordinasiyası üçün isə müxtəlif partiyalarda sələrin aparılmasını tələb edən polifonik əsərləri təklif etmək lazımdır.

Müasir təlimdə kompleksli yanaşma həmçinin multimedia texnologiyalarının və fəal metodların mütləq istifadəsini nəzərdə tutur ki, bunlar

yeni imkanları açmış olur. Müasir fəal metodlardan dirijorluq dərslərində musiqili kompüter proqramların cəlb olunması ilə interaktiv və xüsusən də inteqrativ metod uğurla tətbiq oluna bilər. Ənənəvi təlim formaları ilə müqayisədə belə texnologiyaların üstünlüyü çox əhəmiyyətlidir. Belə ki, hər hansı bir xor əsərinin öyrənilməsi zamanı səslənən musiqinin fonunda yaxın mövzuda olan rəngərəng görüntüləri və mətn informasiyasını birləşdirmək olar. Bu tələbələrə güclü emosional təsir göstərə, onların təxəyyülünü və bədii zövgünü inkişaf etdirə bilər. Tələbə nə qədər çox hərtərəfli hazırlıq işləri apararsa, bir o qədər dirijorluq texnikasının mənimsənilməsi ilhamala və yaradıcı şəkildə baş verər. Bu gün təhsil mühitində, o cümlədən də dirijorluq dərslərində müasir texnologiyaların istifadəsi artıq bir zərurətdir.

**Fəsil III – "Dirijorluğun təlimi prosesində tələbələrin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərin formalaşdırılması üzrə eksperimental iş"** adlanır. Burada eksperimentin gedişatının üç mərhələsi (müəyyənləşdirici-diaqnostik, formalaşdırıcı, kontrol-yoxlama) və alınan nəticələr verilmişdir. Eksperiment ADPU-nun musiqi müəllimliyi ixtisasında təhsil alan 124 və Sumqayıt musiqi texnikumunun dirijorluq şöbəsinin 64 tələbəsi ilə keçirilmişdir.

Yaradıcı təxəyyülün inkişafı və ifaçılıq vərdişlərinin formalaşdırılması prosesinin dinamikasını izləmək üçün eksperimentin birinci mərhələsində tələbələrin yaradıcı fəaliyyətə hazırlıq meyyarları (koqnitiv-yaradıcı, intellektual və texniki) və səviyyələri (aşağı, orta və yüksək) müəyyənləşdirilmişdir. Diaqnostik araşdırma aşkarladı ki, eksperimentdə iştirak edən bütün tələbələr təxminən eyni, orta səviyyədədir. Müqayisə üçün bütün tələbələr eksperimental və kontrol qruplara bölünmüşdür.

Formalaşdırıcı mərhələdə eksperimental qrupa daxil olan tələbələrin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərin formalaşdırılmasına yönəlmiş bütün mexanizmlər kompleksi tətbiq olunmuşdur. Bu mərhələdə bir sıra açıq dərslər aparılmışdır ki, burada dirijorluğun təlimində kompleksli yanaşmanın səmərəliliyi əyani olaraq nümayiş etdirilmişdir. Kontrol qruplarda isə təlim ənənəvi üsullarla aparılmışdır.

Kontrol mərhələdə müstəqil işlərin təhvil verilməsi əsasında, hər bir il üçün tələbələrin yaradıcı vərdişlərinin inkişafı dinamikasını müşahidə edərək, biz eksperimental və kontrol qrup tələbələrinin nəticələrini müqayisə etdik. Tələbələrin yaradıcı təxəyyülünün inkişafı və ifaçılıq vərdişlərinin formalaşdırılması dinamikası cədvəllərdə öz əksinin tapmışdır. Bunlardan aydın olur ki, kontrol qrup tələbələrin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərinin formalaşdırılması daha aşağı səviyyədədir.

Eksperimental qruplarda isə tələbələrin çox hissəsi yüksək, öncədən çox zəif olan tələbələr isə orta səviyyəyə çatmışlar. Beləliklə, eksperimentin gedişatıvəonun nəticələri dissertasiyada sürülən fərziyyəni tamamən təsdiq etmiş və təklif etdiyimiz metodların səmərəliliyini göstərmişdir.

**Nəticə**

Tədqiqatın gedişatında biz bütün qoyulmuş məsələləri həll edərək, aşagıdakı nəticələr əldə etmişik:

1. Dissertasiyada dünya təcrübəsində və Azərbaycanda dirijorluq sənətinin təşəkkülü şərh edilmişdir, onun ən elementar formalardan müasir mürəkkəb ifaçılıq sənəti kimi inkişafının əsas mərhələləri müşahidə edilmişdir. Həmçinin Azərbaycanda xor və opera-simfonik dirijorluğun təşəkkülü, ölkəmizdə bu sənətin inkişaf xüsusiyyətləri və çətinlikləri, böyük Ü.Hacıbəylinin musiqi təhsilinin yaranmasında və dirijorluq kadrlarının inkişafında rolu göstərilmişdir. Dirijorluğun tədrisində mövcud olan problemlər araşdırılmışdır.

2. Tədqiqatda yaradıcı təxəyyül və ifaçılıq vərdişlərinin formalaşdırılması məsələlərinə dair elmi ədəbiyyatın ətraflı təhlili aparılmışdır. Burada biz həmçinin bu məsələlərə dair öz nöqteyi nəzərimizi əsaslandırmışıq. Elmi-pedaqoji baxımdan əsaslandırılmışdır ki, yalnız təxəyyülün şəxsiyyətin digər keyfiyyətləri – qavrama, intellekt, yaddaş, obrazlı və məntiqi təfəkkür ilə birgə inkişafı tələbələrin yaradıcı vərdişlərinin inkişafına gətirib çıxarır (təxəyyülün əsas amil olması şərtilə).

3. Mövcud olan bir sıra nəzəriyyələri təhlil edib, belə nəticəyə gəlmişik ki, dirijorluq sinfinin müəllimi tərəfindən yaradıcı təxəyyülün inkişaf mərhələlərinin ardıcıllığının (qavrama və musiqili-eşitmə təsəvvürlərinin toplanması, musiqili-obrazlı təfəkkürün və intellektin inkişafı, texniki ustalığın və ifaçılıq interpretasiyasının inkişafı) dərk edilməsi qoyulmuş məqsədlərin uğurla realizə olunmasının vacıb amilidir. Tələbələrdə musiqiyə yaradıcı yanaşmanı formalaşdırmaq üçün fəal qavrama vacibdir ki, burada empatiya, obraza daxil olmanın əsasında lazımi dirijorluq jestlərində onun təcəssümü vasitələrinin axtarıb-tapılması baş verir, özü də dirijorluq priyomları düşünülmüş və ifaçılıq niyyətlərinə uyğun olmalıdır.

4. Dirijorluq ifaçılığının keyfiyyəti həmçinin tələbələrin obrazlı və məntiqi təfəkkürünün inkişafından asılıdır. Tədqiqatda əsaslandırılmışdır ki, dirijorluğun təliminin bizim təklif etdiyimiz metodika ilə aparılması nəticəsində tədricən fəal, yaradıcı, müstəqil şəxsiyyətin formalaşması baş verir ki, bu şəxsiyyət fundamental elmi biliklərə əsaslanaraq, öz peşə vəzifələrinin yerinə yetirilməsində dərin təhlil aparmağı və düzgün qəraraları qəbul etməyi bacarar.

5. Dissertsiyada belə müddəa irəli sürülmüşdür ki, təlimin düzgün təşkili prosesində, hər bir konkret halda lazımi metodların tətbiqi nəticəsində yaradıcı qabiliyyətlər və vərdişlər inkişaf edir və dəyişilir, bu da eksperimentin gedişatında öz təstiqini tapmışdır. Məqsədə nail olmaq üçün təlimdə kompleksli yanaşma təklif edilmişdir, yəni ümumpedaqoji, ənənəvi, spesifik musiqili və innovasiyalı metodların birgə istifadəsi.

6. Tədqiqatda yaradıcı təxəyyülün inkişafında assosiasiya və interpretasiya metodlarının mühüm rolu təstiq edilmişdir. Tələbələrin yaradıcı fəallığı və müstəqilliyinin inkişafı üçün xor əsərində musiqili obrazın çoxşaxəliyinin və onun ifasının müxtəlif variantlarının mövcudluğunun dərk edilməsi vacibdir. Bunun sayəsində tələbələrdə məhz özlərinə məxsus ifa üslubunu tapma bacarığı yaranır. Bunlar assosiasiya, analogiya və müqayisə əsasında, həmçinin müxtəlif incəsənət növlərinin, ədəbiyyat və poeziyanın, tarix və fəlsəfənin və s. inteqrasiyası nəticəsində baş verir.

7. Biz belə nəticəyə gəlmişik ki, dirijorluq ifaçılığının spesifikası ilə əlaqədar olaraq tələbənin yaradıcı fərdiliyinin təşəkkülündə problemli-axtarış və tədqiqat metodları çox vacibdir. Bununla bərabər problemli təlimdə kompleksli yanaşma informasiya-kompüter texnologiyalarının mütləq istifadəsini tələb edir. Tədqiqatçı davranışı, yeni biliklərin əsasən müstəqil şəkildə əldə etmə meyilliyinin inkişaf etdirilməsi – yaradıcı şəxsiyyətin formalaşdırılmasının özülünü təşkil edir.

8. Tədqiqatın gedişatında dirijorluq dərslərində tələbələrin hərəkət və idrak fəallığının problemləri, bunların yaradıcı vərdişlərlə əlaqəsi aşkarlanmış və bu istiqamətdə çatışmamazlıqların aradan qaldırılması yolları göstərilmişdir. Qeyd edilmişdir ki, dirijorluq sinfinin müəllimi öz peşə fəaliyyətində nəzərə almalıdır ki, yaradıcı-şüurlu ifa yalnız insan hərəkətlərinin tamamən azad olduğu halda mümkündür. Dirijorluq aparatının qurulması zamanı hər bir fərdin təbii biomexaniki və fizioloji xüsusiyyətlərinə, özünüdərketmə və özünühissetməyə əsaslanan hərəkət azadlığının tərbiyəsi metoduna söykənməlidir.

9. Tədqiqatda dirijorluq sinfində tələbələrin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərin formalaşdırılması üçün kompleksli yanaşmanın səmərəliliyi eksperimentin əsasında sübuta yetirilmişdir. Təcrübi-eksperimental iş dirijorluq sinfində tələbələrin yaradıcı təxəyyülünün inkişafı və ifaçılıq vərdişlərinin formalaşdırılmasının səmərəli vasitəsi kimi müxtəlif metodların birgə istifadəsinin pedaqoji imkanlarını təstiq etmişdir.

Eksperimentin nəticələri aşağıda göstərilən cədvəldə öz əksini tapmışdır:

**Bütün qruplar üzrə kontrol eksperimentin son nəticələri**

| Qruplar / Göstəricilər | «E-I» | «E-II» | «K-I» | «K-II» |
|---|---|---|---|---|
| 1. Koqnitiv-yaradıcı | **25 tәl. (78,2%)** | **50 tәl. (80,8%)** | **5 tәl. (15,5%)** | **5 tәl. (8%)** |
| | **7 tәl. (21,8%)** | **12 tәl. (19,2%)** | **12 tәl. (37,2%)** | **13 tәl. (20,8%)** |
| | **0 tәl.** | **0 tәl.** | **15 tәl. (47,3%)** | **44 tәl. (71,2%)** |
| 2. Təfəkküri-intellektual | **29 tәl. (90,7%)** | **50 tәl. (80,8%)** | **0 tәl.** | **1 tәl. (1,6%)** |
| | **3 tәl. (9,3%)** | **12 tәl. (19,2%)** | **8 tәl. (24,9%)** | **8 tәl. (11,2%)** |
| | **0 tәl.** | **0 tәl.** | **24 tәl. (75,1%)** | **53 tәl. (87,2%)** |
| 3. Texniki | **31 tәl. (96,9%)** | **54 tәl. (87,2%)** | **0 tәl.** | **2 tәl. (3,2%)** |
| | **1 tәl. (3,1%)** | **8 tәl. (12,8%)** | **22 tәl. (69%)** | **23 tәl. (36,8%)** |
| | **0 tәl.** | **0 tәl.** | **10 tәl. (31%)** | **37 tәl. (60%)** |

- yüksək səviyyə - orta səviyyə - aşağı səviyyə

Cədvəldən göründüyü kimi, kontrol qrupun tələbələrinin yaradıcı təxəyyülünün inkişafı və vərdişlərinin formalaşması amilləri daha aşağı səviyyədədir. Eksperimental qrupda isə tələbələrin çox hissəsi yüksək, əvvəldən çox zəif olan tələbələr isə orta səviyyəyə uyğon olmuşlar.

Beləliklə, aparılan nəzəri və eksperimental tədqiqat bizim irəli sürdüyümüz fərziyyəni tamamən təstiq etmişdir.

Dissertasiyanın əsas məzmunu aşağıda göstərilən müəllifin nəşr olunmuş elmi əsərlərində öz əksini tapmışdır:

1. Dirijorun hərəkət fəallığının problemləri. Məqalə. / “Musiqi dünyası” j-lı, Bakı, BMA, 2008, №1-2, səh.159-160.

2. Методические рекомендации по развитию у студентов творческих навыков и самостоятельного мышления в классе дирижирования на муз. отделении Пед-го Ун-та. Məqalə. / "Dil və ədəbiyyat", Bakı, BDU, 2008, № 3, səh.184-185.

3. Основные направления и практическое значение предмета «дирижирование» в системе подготовки учителей музыки в Пед. Унив. Məqalə. / "Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri", Bakı, 2008, № 24, səh.158-161.

4. Dirijorluq sinifində tələbələrin hərəkət vərdişlərinin formalaşdırılması. Məqalə. / "Musiqi dünyası", Bakı, BMA, 2009, № 1-2, səh.109-110.

5. Пути развития хорового искусства и хормейстерских кадров в Азербайджане. Məqalə. / "Dil və ədəbiyyat", Bakı, BDU, 2011, № 1 (77), səh. 248-250

6. Yaradıcılıq vərdişlərin formalaşmasında bədii təxəyyülün rolu. Tezis. / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfrans materialları, Bakı, Memarlıq və İnşaat U-ti, 2012, səh.314-316.

7. Формирование творческих навыков студентов на уроках дирижирования. Məqalə. / "Dil və ədəbiyyat", Bakı, BDU, 2013, № 4 (88), səh. 293-295.

8. Формирование творческой личности на уроках дирижирования. Tezis. /Doktorantların və gənc tədqiqatçılrın XVIII Respublika elmi konfransının materialları, Bakı, Dillər U-ti, 2013, səh. 317-319.

9. Dirijorluq və onun tədrisi metodikası. Həmmüəllif E.Dadaşova / Dərslik. Bakı, ADPU, 2013, 219 səh.

10. Проблемы развития творческой самостоятельности студентов на уроках дириж-я. Məqalə. / "Pedaqoji Universitet xəbərləri", Баку, АГПУ, 2013, № 4, стр.253-256.

11. Методы и приемы развития творческого воображения на уроках дирижирования. Məqalə. / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri", XIII Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, ADMİU, 2014, səh. 70-73.

12. Становление и развитие дирижерско-хорового исполнительства и дирижерских кадров в Азербайджане. Məqalə. / «Гілея» Науковий вісник, Національний пед. Університет м. М.П.Драгоманова, Киев, 2014, випуск 82 (№3), səh. 296-299.

13. Dirijorluq sinfində tələbələrin yaradıcı vərdişlərinin formalaşdırılması prosesində fəal təlim metodların və müasir texnologiyaların tətbiqi. Məqalə. / "Pedaqoji Universitet xəbərləri", Bakı, ADPU, 2014, № 2, səh. 343-346.

14. Формирование творческих навыков студентов на уроках дирижирования. Məqalə. / «Вектор науки» Тольяттинского Государственного Университета, 2014, № 2 (17), səh.11-13.

15. Этапы развития творческого воображения на уроках дирижирования. Məqalə. / "Pedaqoji Universitet xəbərləri", Bakı, ADPU, 2014, № 4, səh. 350-354.

16. Проблемы развития творческого воображения в дирижерском классе. Tezis. / Doktorantların və gənc tədqiqatçılrın XIX Respublika elmi konfransının materialları, Bakı, Az.Dövlət İqtisad U-ti, 2014,

17. Проблемы развития творческого воображения в дирижерском классе. Məqalə. / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri", XIV Beynəlxalq elmi-praktiki konfrans materialları, Bakı, ADMİU, 2015, səh. 95-101

18. "Dirijorluq və onun tədrisi metodikası" fənninin kurikulumu. Proqram. / Bakı, ADPU mətbəəsi, 2015, 79 стр.

19. Развитие творческих навыков студентов на уроках дирижирования с помощью ИКТ. Məqalə. / "Müəllim hazırlama siyasəti və problemləri" V Beynəlxalq konfrans mater., ADPU, Qafqaz Universiteti, Hacıtəpə Un-ti, Bakı, 2015, səh. 230-234.

20. Musiqi müəlliminin yaradıcı fəaliyyəti. Məqalə. / "Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri", Bakl, ADPU, 2016, № 1, səh.70-74

21. Dirijorluq (Azərbaycan bəstəkarlarının a kapella xorları). Həmmüəllif G.Ə.Axundova / Dərs vəsaiti, Bakı, ADPU, 2016, 238 səh.

22. Развитие воображения как основополагающий фактор формирования творческой личности на уроках дирижирования. Məqalə. / "Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri" № 1(2), ADPU, Bakı, 2017, səh. 36-43

23. Musiqi dərslərinə innovativ yanaşma. Məqalə. / "Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri" № 2, ADPU, Bakı, 2017, səh. 30-36

**Алиева Маралханум Тофик гызы**

# Проблемы развития творческого воображения и формирования навыков студентов в дирижерском классе

## РЕЗЮМЕ

Диссертационная работа посвящена малоизученной в нашей стране и очень сложной проблеме – развитию творческого воображения и формированию навыков студентов в дирижерском классе. Диссертация состоит из введения, трех глав, пяти разделов, заключения и списка литературы. Во введении обоснованы актуальность и степень разработанности темы, указаны объект, предмет, цель, гипотеза, задачи, методологическая основа и методы исследования, а также выносимые на защиту положения, научная новизна, теоретическая и практическая знасимость и т.д.

I глава диссертации – «Пути развития дирижерского искусства и проблемы преподавания дирижирования в мировой практике и Азербайджане» - состоит из двух разделов. Здесь рассматриваются трансформация дирижирования от самых примитивных его форм до современного высочайшего исполнительского искусства, иторические пути возникновения музыкального и дирижерско-хорового образования в нашей стране и выявляются имеющиеся в преподавании проблемы.

Во II главе – «Воображение как основополагающий фактор формирования профессиональных и творческих навыков обучающихся в дирижерском классе» - проводится анализ литературы по исследуемой теме, анализируются понятия творческого воображения, творческой личности и самостоятельности. Затем определяются этапы формирования творческого воображения, разрабатываются и предлагаются механизмы, методы и приемы для развития профессиональных и творческих навыков студентов. Третья глава отражает ход эксперимента, который состоит из 3 этапов: констатирующий (диагностический), формирующий и контрольно-проверочный. В заключении даются выводы, полученные при выполнении работы. Проведенное исследование показало,что для успешного формирования творческой личности и овладения дирижерскими навыками приоритетным является работа над развитием творческого воображения.

**Aliyeva Maralkhanym Tofig**

## The development of creative imagination and problems of skills development of the students in the conductor class

## SUMMARY

Dissertation has been devoted to the little-studied and very complex issue in our country – development of creative imagination and problems of skills formation of the students in the conductor class. The thesis consists of the introduction section, three chapters, four sub-chapters, conclusion and literature sections. The introduction section includes justification of the actuality of the subject, degree of usage, object, subject, purpose, hypothesis of the study, objectives, methodological bases, methods, provisions of defense, scientific innovation, theoretical and practical importance.

The first chapter of the thesis consists of "Ways of development of conducting art and problems of teaching conducting in the world and Azerbaijan" – two subchapters. Here we consider the transformation of conducting from the most primitive forms to the modern highest performing arts, the ways of the emergence of musical and conductor-choir education in our country and reveal the problems that are available in teaching.

In the second chapter of the thesis titled "Imagination - as a key factor in the formation of the professional and creative skills of those trained in the conductor school", the scientific literature close to the studied problem is analyzed, theoretical analysis is presented for the concepts of creative imagination, creative personality and creative independence. Then the formation stages of the creative imagination are determined, mechanisms, methods, techniques are developed and proposed. The third chapter directly reflects the progress of the experiment. The experimental is divided into three stages: determination, formation and control and test phase.

At the end of the research work, the results obtained from the implementation of the work were reflected there. The conducted reaches has demonstrated that, formation of the creative personality and mastering conducting skills successfully, the work on the development of the creative imagination should be taken forward as a priority.

*Kağız formatı 60x84 1/16, çap vərəqi 1,5*

*Sifariş 163 saylı 100*

---

*ADPU-nun mətbəəsi, 68*

*Tel: ()12) 493-74-10*

*Email: Poliqrafiya@mail.ru*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЛИЕВА МАРАЛХАНУМ ТОФИГ ГЫЗЫ**

# ПРОБЛЕМЫ РАЗВИТИЯ ТВОРЧЕСКОГО ВООБРАЖЕНИЯ И ФОРМИРОВАНИЯ НАВЫКОВ СТУДЕНТОВ В ДИРИЖЕРСКОМ КЛАССЕ

**5804.01. – Общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени**
**доктора философии по педагогике**

**БАКУ – 2018**